# Su təhçizatı sahəsində yaranan suallar

**1. Su təhcizatı üzrə fərdi istifadəçilər tərəfindən ödənilən məbləğ nə qədərdir?**
Bakı, Sumqayıt, Gəncə, Mingəçevir Əli-Bayramlı, Xırdalan şəhərləri və Abşeron rayonu üzrə tariflər 1 $m^3$ üçün ƏDV ilə 18 qəpik, digər regionlar üzrə tariflər 1 $m^3$ üçün ƏDV ilə 14 qəpik

**2. Fərdi istifadəçilər və hüquqi şəxslər arasında su təhcizatı ödənilməsində fərq varmı?**
Bəli var, fərdi istifadəçilərdən fərqli olaraq digər sahələrdə istifadəyə görə 1 $m^3$ üçün ƏDV ilə 70 qəpik ödənilməlidir, sudan xammal kimi istifadə olunduğu halda isə 1 $m^3$ üçün ƏDV **ilə** 12,0 manat ödənilməlidir.

**3. Su təhcizatı üzrə ödəmələr hara və hansı formada ödənilməlidir?**
Su təhcizatı üzrə ödəmələ vətəndaş tərəfindən sayğacın göstəricilərinə uyğun olaraq aidiyyatı üzrə müvafiq banklara ödənilməlidir.

**4. Sayğac quraşdırılmıyan evlərdə hesablama necə aparılır?**
Sayğac quraşdırılmamış mənzillərdə adambaşına su istehlakı norması 6 $m^3$ müəyyən edilir. Beləlik lə, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir Əli-Bayramlı, Xırdalan şəhərləri və Abşeron rayonu üzrə adambaşına 108 qəpik(6X 18), degər regionlar üzrə 84qəpik(6X14) aylıq su sərfiyatı kimi sayılır.

**5. Ödəniş hansı müddətdə edilməlidi və gecikdirilməsinə görə sanksiyalar?**
Sudan istifadəyə görə hesablaşmalar su təchizatı müəssisəsi tərəfindən hər ay istehlakçıya göndərdiyi məlumat (hesab) əsasında aparılır. Ödəmələr vətəndaş tərəfindən şəxsən olaraq aidiyyatı üzrə poçt bölmələrinə və ya müvafiq banklara ödənilməlidir. Abonent hesablaşma dövründə istifadə etdiyi suyun haqqını su idarəsi tərəfindən ödəmə sənədi təqdim edildikdən sonra bir ay müddətində ödəməlidir.

**6. Su təhcizatı hansı hallarda dayandırıla bilər?**
Su təchizatı müəssisəsi aşağıdakı hallarda istehlakçının su təchizatını dayandıra bilər: istehlakçının müvafiq yazılı müraciəti (su təchizatının dayandırılmasının səbəbi və müddəti göstərilməklə) olduqda; tikinti, təmir-profilaktika və qəza işlərinin görülməsinə və su tutumlarının təmizlənməsinə ehtiyac yarandıqda; su götürülən yerlərdə səth sularının bulanıqlıq dərəcəsi artdıqda və ya su hövzəsində fövqəladə ekoloji böhran vəziyyəti yarandıqda; istehlakçının paylayıcı su kəmərləri şəbəkəsi, su tutarları (su anbarları), qoşulmalar, siyirtmələr, kranlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövlət standartlarının tələblərinə cavab vermədikdə; su təchizatı müəssisəsinin istehlakçıya verdiyi suyun hesabı istehlakçıya su təchizatı müəssisəsi tərəfindən təqdim edildikdən (göndərildikdən) sonra bir ay müddətində tam məbləğdə ödənilmədikdə; su təchizatı müəssisəsi ilə müvafiq müqavilə bağlanmadıqda; məişət (təsərrüfat) - içməli su ehtiyacları üçün nəzərdə tutulmuş magistral su kəmərlərindəki sudan digər məqsədlərlə istifadə olunduqda; məhkəmənin qərarı ilə.

**7. Yaşayış evinin sayğaclaşdırılması proseduru və qiyməti?**

Yeni tikilmiş evlərin su xətlərinə qoşulması üçün onların ərizəsi əsasında müvafiq su idarəsi tərəfindən texniki şərt hazırlanır. Göstərilən texniki şərtin hazırlanmasının haqqı borunun diametirindən asılı olaraq fərqlənir (D=15mm-73.4AZN, D=50mm-914AZN). Sayğacın quraşdırılması ilə əlaqədar diqər xərclər su təchizatı müəssəsinin hesabına həyata keçirilir.